# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ

## S Ə R Ə N C A M

**“Duzdağ Fizioterapiya Mərkəzi” publik hüquqi şəxsin ləğv edilməsi və əmlakının Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyinə verilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2024-cü il 6 aprel tarixli 452-06/S nömrəli Sərəncamının icrasının təmin edilməsi barədə**

“Duzdağ Fizioterapiya Mərkəzi” publik hüquqi şəxsin ləğv edilməsi və əmlakının Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyinə verilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2024-cü il 6 aprel tarixli 452-06/S nömrəli Sərəncamının (bundan sonra - Sərəncam) icrasını təmin etmək məqsədilə:

1. Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi, Naxçıvan Muxtar Respublikasının Səhiyyə Nazirliyi, Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi və icra prosesində müəyyən ediləcək digər aidiyyəti dövlət orqanları (dövlətin hüquqi şəxsləri) ilə razılaşdırmaqla, bir ay müddətində:

1.1. Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin hüquqi aktlarının Sərəncama uyğunlaşdırılması ilə bağlı təkliflərini Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə təqdim etsin;

1.2. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının Sərəncama uyğunlaşdırılması ilə bağlı təkliflərini Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

2. Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanları üç aydan gec olmayaraq, Sərəncamın icrasını təmin etmək məqsədilə öz səlahiyyətləri daxilində normayaratma vəzifələrindən irəli gələn tədbirlər görüb, normativ hüquqi aktlarını və ya təkliflərinin olmadığı barədə məlumatı Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyinə təqdim etsinlər və icra vəziyyəti tələb etdikdə Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə məlumat versinlər.

3. Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların Sərəncama uyğunlaşdırılmasını təmin edib, bu barədə dörd ay müddətində Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

4. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri** **Səbuhi Məmmədov**

Naxçıvan şəhəri, “ 17 ” aprel 2024-cü il

№ 33s